# ÜMUMMİLLİ LİDER VƏ RƏSMİ STATİSTİKA: RƏQƏMLƏRLƏ YAZILAN TARİX

*Azərbaycan xalqının yaddaşında dərin iz qoymuş şəxsiyyətlər içərisində Heydər Əliyevin yeri və rolu müstəsnadır. Onun dövlət quruculuğu sahəsində göstərdiyi tarixi xidmətlər müasir Azərbaycanın inkişaf xəritəsinin əsas sütunlarını formalaşdırmışdır. Bu gün biz Ulu Öndəri sadəcə siyasi lider kimi deyil, həm də hərtərəfli dövlət idarəetmə sisteminin memarı kimi dəyərləndiririk. Onun çoxşaxəli fəaliyyətində dövlət quruculuğu, iqtisadiyyat, sosial inkişaf, eləcə də elmi əsaslara söykənən idarəetmə sahəsində atdığı addımlar çağdaş Azərbaycanın tərəqqisinin bünövrəsini təşkil etmişdir. Bu istiqamətlərdən biri də müasir statistika sisteminin formalaşdırılması və dövlət idarəetməsindəki rolunun gücləndirilməsidir. Bu baxımdan, statistik idarəçiliyin inkişafı və dövlət planlaşdırmasında dəqiq rəqəmlərə əsaslanan siyasətin tətbiqi dahi liderin müdrik rəhbərliyinin bariz nümunəsidir. Bu gün informasiya bolluğu dövründə dəqiq və operativ statistik məlumatlara əsaslanan idarəetmə modeli daha da aktuallaşır. Bu yanaşmanın əsası əsrin ortalarından etibarən Heydər Əliyev tərəfindən qoyulmuşdur.*

## Dövlət idarəçiliyində riyazi əsas: Heydər Əliyev və statistik düşüncə

Heydər Əliyev hələ 1969-cu ildən Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə statistik informasiya sisteminin gücləndirilməsi üçün real addımlar atmışdır. Məhz bu dövrdə statistik qurumlar sadəcə hesabat təqdim edən texniki strukturlar yox, dövlətin planlaşdırma və inkişaf strategiyasının əsas iştirakçıları kimi formalaşmışdır. O dövrdə planlaşdırma və iqtisadi təhlil işlərinin elmi əsaslara söykənməsi, məhz statistik göstəricilərin operativliyi və dəqiqliyi ilə bağlı idi. Ulu Öndər bu sahədə şəffaf və çevik sistemin formalaşmasının vacibliyini dönə-dönə qeyd etmiş, statistik xidmətin dövlətin bütün sahələrində etibarlı təhlil və qərarvermə alətinə çevrilməsini təmin etmişdir. Ən kiçik təsərrüfatdan ən böyük sənaye müəssisəsinədək statistik uçotun aparılması, hesabatların dövri olaraq təhlil edilməsi və bu rəqəmlərə əsaslanan iqtisadi modellərin işlənməsi onun idarəetmə təcrübəsinin ayrılmaz hissəsi olmuşdur. Bu, sadəcə texniki məsələ deyildi - Heydər Əliyev üçün statistika dövlət idarəçiliyində dəqiqliyin və obyektivliyin təminatçısı idi. Onun rəhbərliyi ilə statistik uçot sistemləri təkmilləşdirildi, məlumatların toplanma üsulları elmi əsaslarla yenidən quruldu, sahə göstəriciləri üzrə detallı təhlil modelləri tətbiq olundu. Bütün bunlar idarəetmənin dəqiqliyini artırmaqla, həm də ictimaiyyətdə dövlətə olan inamı gücləndirdi.

## Müstəqillik dövründə statistika sisteminin təməl prinsipləri

1993-cü ildə xalqın çağırışı ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev müstəqil dövlətin inkişaf strategiyasını müəyyənləşdirərkən statistikaya xüsusi önəm verdi. Çünki artıq Azərbaycan postsovet ölkəsi olaraq öz iqtisadi-sosial modelini müstəqil şəkildə formalaşdırmalı və bu model yalnız real rəqəmlərə, obyektiv göstəricilərə söykənməliydi. Heydər Əliyevin rəhbərliyi ilə dövlət statistika sisteminin hüquqi və institusional əsasları yenidən quruldu, rəsmi statistikaya dair qanunvericilik gündəmə gəldi və "Rəsmi statistika haqqında" 1994-cü il 18 fevral tarixli 789 nömrəli Qanun qəbul olundu. Qanunla Azərbaycan Respublikasında rəsmi statistika sahəsində hüquqi münasibətlər tənzimləndi, statistika orqanlarının səlahiyyət və funksiyaları müəyyən edildi. Beləliklə, Dövlət Statistika Komitəsinə yeni səlahiyyətlər verildi, statistik informasiyanın yayımı sahəsində şəffaflıq təmin olundu. Heydər Əliyev Dövlət Statistika Komitəsinin fəaliyyətinə xüsusi önəm verir, qurumun cəmiyyət və dövlət üçün əhəmiyyətini yüksək qiymətləndirirdi. Onun təşəbbüsü ilə statistik xidmətin hüquqi əsasları möhkəmləndirildi, təşkilati strukturu təkmilləşdirildi və beynəlxalq standartlara uyğunlaşdırılma prosesi başlandı. Bütün bunlarla yanaşı, Ulu Öndər statistik qurumların kadr potensialının artırılmasını da daim diqqət mərkəzində saxladı. Statistika sahəsində çalışan mütəxəssislərin elmi-pedaqoji hazırlığı, informasiya texnologiyaları ilə işləmə bacarıqları, beynəlxalq təcrübəyə yiyələnmələri prioritet idi.

## Statistika vasitəsilə şəffaflıq, hesabatlılıq və beynəlxalq etimadın bərpası

Heydər Əliyevin dövlət idarəetmə fəlsəfəsində şəffaflıq və ictimai hesabatlılıq aparıcı prinsiplərdən idi. Məhz buna görə də statistik göstəricilər yalnız dövlət strukturları deyil, ictimaiyyət üçün də əlçatan olmalı idi. 1990-cı illərin ortalarında ilk dəfə olaraq rəsmi statistik bülletenlərin geniş tirajla nəşri, regional və sahə göstəricilərinin mütəmadi ictimaiyyətə təqdim olunması bu məqsədə xidmət edirdi. Ulu Öndər hesab edirdi ki, dövlət vətəndaşa hesabat verməyi bacarmalı və bu hesabatlar əsasən rəqəmlərlə ifadə olunmalıdır. Əmək bazarı, demoqrafiya, kənd təsərrüfatı, sənaye, investisiya kimi sahələr üzrə statistika yalnız idarəetmə üçün deyil, vətəndaşın öz qərarlarını verməsində də rol oynayırdı.

Heydər Əliyevin qənaətinə görə, statistik göstəricilər həm də Azərbaycanın dünyaya təqdimat vasitəsidir. Onun rəhbərliyi dövründə ölkənin iqtisadi-sosial inkişafına dair rəqəmlərin dəqiqliyi və etibarlılığı beynəlxalq təşkilatlar tərəfindən tanındı. Məhz buna görə də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi qısa müddətdə bir sıra beynəlxalq təşkilatların - BMT-nin Statistika Komissiyası, MDB-nin Statistika Komitəsi və digər qurumlarla əməkdaşlığa başladı. Bu, təkcə texniki uyğunlaşma deyil, həm də Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasına zəmin yaradan addım idi. Statistik rəqəmlərin dəqiqliyi və obyektivliyi ölkə haqqında beynəlxalq hesabatlarda Azərbaycanın mövqeyini möhkəmləndirdi. Xarici investorlar və donor təşkilatlar üçün statistik etibarlılıq Azərbaycanın sabitliyinin və iqtisadi potensialının göstəricisinə çevrildi. Bu etibar yalnız peşəkarlıqla deyil, həm də siyasi iradə ilə bağlı idi. Heydər Əliyev üçün statistikaya əsaslanan qərarlar siyasi populizmdən uzaq, real ehtiyaclara və imkanlara əsaslanan idarəetmə demək idi.

## Ulu Öndərin müəyyən etdiyi prinsiplər Dövlət Statistika Komitəsinin fəaliyyətində prioritetdir

Rəqəmlərlə işləyən bir orqan kimi Komitə şəffaflığa, obyektivliyə və ictimai hesabatlılığa xüsusi önəm verir. Müasir elektron informasiya sistemlərinin tətbiqi, inteqrasiya olunmuş statistik məlumatlar portalının yaradılması, vətəndaşlara açıq məlumat xidmətlərinin təkmilləşdirilməsi məhz Heydər Əliyevin gələcəyə yönəlmiş baxışlarının nəticəsidir. Bu gün Dövlət Statistika Komitəsi Ulu Öndərin yaratdığı təməllər üzərində müasir çağırışlara uyğun şəkildə fəaliyyət göstərir. Rəqəmsallaşma, elektron hesabatlılıq, açıq data platformaları, statistik vizuallaşdırma və süni intellekt alətləri ilə təhlil imkanları bu inkişafın göstəriciləridir. Beləliklə, Komitə təkcə məlumat toplayan qurum deyil, iqtisadi, sosial və demoqrafik proseslərin elmi təhlilini həyata keçirən, dövlət siyasətini dəstəkləyən strateji orqana çevrilmişdir. Bu isə bir daha göstərir ki, Heydər Əliyevin dövlət idarəçiliyində elmi əsaslara söykənən yanaşması bu gün də aktuallığını qoruyur. Son illər ərzində komitənin təşəbbüsü ilə həyata keçirilən rəqəmsallaşma prosesi, statistik məlumatların vaxtında ictimaiyyətə çatdırılması və vətəndaşların statistik maarifləndirilməsi sahəsində atılan addımlar da bu ideyaların davamıdır. Heydər Əliyevin "hər şey ölçülməlidir ki, dəyərləndirilsin" yanaşması bu gün də aktualdır və dövlət siyasətində əsas prinsip kimi tətbiq olunur.

## Rəqəmsallaşma və informasiya texnologiyaları: müasir statistikanın əsas dayağı

Heydər Əliyevin dövlət idarəetməsində əsas prinsiplərdən biri informasiya texnologiyalarından səmərəli istifadə idi. Məhz Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycanda ilk kompüterləşmə, proqramlaşdırılma həyata keçirildi. Statistik hesabatların elektron formatda toplanması, emal olunması və təhlil edilməsi istiqamətində ilk konseptual yanaşmalar da Ulu Öndərin idarəçiliyi dövründə formalaşdı. Dünyaya açıq, texnologiyaya əsaslanan müasir Azərbaycan konsepsiyası bu gün statistika sahəsində də öz bəhrəsini verir. Hazırda Dövlət Statistika Komitəsi tərəfindən tətbiq olunan rəsmi statistik hesabatların elektron təqdim edilməsi, Statistik informasiya xidməti (ASİS), açıq məlumat bazası (Open Data), dinamik vizuallaşdırma vasitəsi olan Azərbaycanın elektron statistik xəritəsi məhz bu baxışın davamıdır. Statistik məlumatların toplanmasında və paylaşılmasında rəqəmsal çeviklik dövlət orqanları ilə vətəndaşlar arasında etimadı daha da artırır. Eyni zamanda süni intellekt və maşın öyrənməsi kimi alqoritmlərin tətbiqi ilə statistik təhlil və proqnozlaşdırma imkanlarının genişlənməsi, idarəetmədə daha effektiv qərarların qəbulunu mümkün edir. Bu, həm iqtisadi, həm də sosial proseslərin idarə olunmasında yeni mərhələ açır.

## Rəqəmlərin arxasında dayanan güclü iradə

Heydər Əliyev dövlətin gələcəyini statistik təhlillərə, strateji planlara və dəqiq modellərə söykənən proses kimi görürdü. Bu baxış bu gün də dövlətçilik fəlsəfəmizə istiqamət verir. Heydər Əliyev statistikanı yalnız iqtisadiyyatın deyil, bütövlükdə cəmiyyətin inkişaf göstəricisi kimi dəyərləndirirdi. Onun dövlətçilik konsepsiyasında hər rəqəm bir reallığı, hər göstərici bir hədəfi təmsil edirdi. Ulu Öndər üçün inkişaf təsadüfi proses deyil, dəqiq plan, elmi əsas, strateji baxış idi. Bu baxışın təməlində isə məhz etibarlı, obyektiv və sistemli statistika dayanırdı.

Bu gün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi bu böyük irsin daşıyıcısı kimi fəaliyyətini davam etdirir. Heydər Əliyev irsini yaşatmaq - bu, yalnız sözlə deyil, əməli fəaliyyətlə, rəqəmlərlə təsdiq olunan inkişafla mümkündür. Ümummilli Liderin xatirəsi qarşısında borcumuz yalnız onun ideyalarını yad etmək deyil, bu ideyaları gündəlik fəaliyyətimizdə yaşatmaqdır. Hər doğru rəqəm, hər dürüst göstərici, hər dəqiq təhlil bu irsin davamıdır. Bu isə bir daha göstərir ki, Heydər Əliyevin dövlət idarəçiliyində elmi əsaslara və texnoloji inkişaflara söykənən yanaşması bu gün də aktuallığını qoruyur. Rəqəmsallaşma təkcə texniki inkişaf deyil, dövlətin şəffaf, vətəndaşa yaxın və çevik fəaliyyət modelinin təcəssümüdür. Bu modelin uğurlu tətbiqi isə Heydər Əliyev irsinin çağdaş dövrə uyğun davamıdır.

**Səyavuş ƏHMƏDOV,**
**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin İnformasiya Texnologiyaları Şöbəsi müdirinin müavini.**

Respublika .- 2025.- 6 may (№91).- S.4.